## ŞAMAXI RAYON ƏRAZİSİNDƏN GÖTÜRÜLMÜŞ SU NÜMUNƏLƏRİNDƏ SULFAT VƏ XLORİD İONLARININ ANALİZİ

**Dadaşzadə A.F., Bayramov Q.İ.**

*Bakı Dövlət Universiteti*
*aygundadashzade97@gmail.com*

Azərbaycan Respublikasının başlıca ekoloji problemlərindən biridə su ehtiyatlarının tullantı suları ilə çirkləndirilməsi, əhalinin keyfiyyətli su təminatının yüksək səviyyədə olmaması, şirin suların istifadəçilərə çatdırılana qədər itkisinə yol verilməsidir. Lakin su ehtiyatlarının ekoloji moniotoringi sahəsində tədqiqat işləri kifayət qədər yüksək səviyyədə deyil. Buna görə də Şamaxı regionunda yerləşən bəzi su mənbələrinin, ekoloji və sanitar gigiyenik vəziyyəti araşdırılır. Bu məqsədlə suyun fiziki, kimyəvi və bioloji xassələri öyrənilmişdir.

İlk öncə Şamaxı rayonu ərazisindən götürülmüş su nümunələri analiz edilmişdir. Analiz edilən üzümçülük sahələrini suvarmaq üçün istifadə olunan suvarlılma suyu və içməli su nümunələri olmuşdur.

**Cədvəl 1. Su nümunələrinin analiz nəticələri**

| Su nümunəsinin adı | Sulfat ionu, mq/l YVQH-500mq/l | Xlorid ionu, mq/l YVQH-350mq/l |
|---|---|---|
| Suvarılma suyu | 550 | 380 |
| İçməli su | 420 | 360 |

Alınan nəticələri qeyd etdiyimiz cədvəldən göründüyü kimi, Şamaxı rayon suvarılma zonasından götürülmüş su nümunəsində xlorid və sulfat ionlarının miqdarı yol verilən qatılıq həddini keçir, içməli su nümunəsində isə sulat anionu YVQH-ni keçmir, lakin xlorid ionu isə YVQH-ni nisbətən keçir.

Yoxlanışların nəticəsi göstərmişdir ki, üzümçülük sahələri və kənd ərazilərindən keçən su mənbələri (çay və arx) heç bir ekogigiyenik qaydalara cavab vermir.